# Münxen görüşü dünya mediasında böyük ajiotaj yaradıb

❒ ***Dünyanın nüfuzlu mətbuat orqanları və siyasi ekspertləri Münxen görüşünə böyük diqqət ayırırlar. Görüş Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynadı. Bu sözləri AMEA Mərkəzi Elmi Kitabxanası direktorunun müavini, diaspor üzrə araşdırmaçı-ekspert Elnur Eltürk bildirib.***



E. Eltürk qeyd edib ki, görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyana beynəlxalq siyasətdən, hüquqdan və tarixdən dərs keçməsi diqqətdən yayınmadı. Paşinyan reallıqdan uzaq fikirlər səsləndirməyə cəhd etsə də uğursuz alındı.

Azərbaycan Prezidentinin Qarabağla bağlı səsləndirdiyi dəlillər tam həqiqəti əks etdirirdi. Ona görə də, Paşinyan çətin vəziyyətə düşdü. Özü haqqında formalaşdırmaq istədiyi demokrat və vətənpərvər imici uğursuzluğa düçar oldu. Deyərdim ki, informasiya təbliğatında Ermənistan indiyədək belə zərbə almamışdı. Prezident İlham Əliyev Nikol Paşinyanı şahmat termini ilə desək, "pat vəziyyəti"nə saldı.

Ekspert bildirib ki, erməni diasporunun qondarma Dağlıq Qarabağ rejiminin müstəqil və beynəlxalq subyektin tərkib hissəsi olması haqqında apardığı təbliğat strategiyası da alt-üst oldu. Dünyada Ermənistanın formalaşmaqda olan işğalçı, təcavüzkar imici daha da möhkəmləndi. Görüş Azərbaycanın Qarabağ məsələsində prinsipial mövqeyindən bir addım olsa geri çəkilməyəcəyini göstərdi.

Bundan sonra Ermənistan bütün beynəlxalq arenada ifşa olunmalıdır. Dünya birliyi qəti mövqe sərgiləməli və Ermənistan ordusunun torpaqlarımızdan çıxmasını tələb etməlidir. Münxen debatı Ermənistan cəmiyyətində böyük gərginliyə səbəb olub.

***Anar TURAN,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 21 fevral.- S.7.